# Azərbaycan Yazıçılar Birliyinin geniş tərkibli toplantısı keçirilib



Yanvarın 23-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Birliyin geniş tərkibli toplantısı keçirilib. Toplantıda Yazıçılar Birliyinin rəhbərliyi, aparatın əməkdaşları, redaksiyaların rəhbərliyi və əməkdaşları iştirak ediblər. Toplantını giriş sözüylə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar açaraq bildirib ki, işdə davamiyyət, nizam-intizam məsələlərinə ciddi yanaşmaq lazımdır: "Biz heç kimi işsiz, çörəksiz qoymaq istəmirik, ancaq işə səhlənkar yanaşanlara, uzun müddət işə gəlməyən əməkdaşlara güzəşt etməklə, işləyən əməkdaşlara qarşı ədalətsizlik etmiş oluruq". Xalq yazıçısı Qəbul məsələlərindən, üzvlük haqqını ödəməyən üzvlərdən də söz açıb. Dəfələrlə xəbərdarlıq edilməsinə, köhnə borcların silinməsinə baxmayaraq hələ də üzvlük haqqını ödəməyən çoxlu üzv var. Toplantıda çıxış edən AYB katibləri, redaksiya rəhbərləri və başqaları qaldırılan problemlərin həlliylə bağlı təkliflərini səsləndiriblər. Qərara alınıb ki, fevral ayında yenidən geniş təkibli toplantı keçirilsin, nizam-intizam qaydalarını pozan əməkdaşlara xəbərdarlıq edilsin, üzvlük haqlarını ödəməyən üzvlərə bir daha bir ay müddətinə vaxt verilsin, bu müddət ərzində borclarını ödəməyən üzvlər Birliyin sıralarından xaric edilsin.

**AYB.az**

**Ədəbiyyat qəzeti.- 2023- cüil.- 28 yanvar.- S. 3.**